

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 may 2024-cü il №35 (2846) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 10-11 may tarixlərində Şuşa və Laçın şəhərlərinə səfər ediblər. Səfər çərçivəsində ölkə başçısı və birinci xanım işğaldan azad olunan ərazilərdə aparılan abadlıq və quruculuq işləri ilə tanış olublar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Şuşada Mamayı məscidinin, Laçın rayonunda "AzərEnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su-Elektrik stansiyalarının (KSES) açılışında, eləcə də Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməlqoyma mərasimlərində iştirak ediblər. Həmçinin Şuşa şəhərində yerləşən Çöl Qala məscidində, Üzeyir Hacıbəylinin ev-muzeyində, Aşağı Gövhər Ağa məscidində aparılan işlərlə və Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olublar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verilib. Bildirilib ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən, 20 ailə olmaqla, 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Sonra dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı görüşdə çıxış edib.



### Prezident İlham Əliyevin çıxışı

- Əziz şuşalılar, Şuşaya xoş gəlmisiniz.

Otuz iki ildən sonra siz doğma Şuşaya qayıdırsınız. Bu gözəl tarixi hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Siz otuz iki il Vətən həsrəti ilə yaşamısınız, amma bilirəm ki, bir an da Şuşanı unutmamısınız, bilirdiniz və inanırdınız ki, siz buraya qayıdacaqsınız. Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma Vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim.

Biz hazırlaşırdıq, ölkəmizi gücləndirirdik, iqtisadiyyatımızı gücləndirirdik, güclü ordu potensialı yaradırdıq. Ən önəmlisi gənc nəsli, - bu gün bizim qürur mənbəyimiz olan Şuşanı və o vaxt işğal altında olan digər torpaqları öz canı-qanı bahasına azad edən, - yetişdirirdik və yetişdirdik. Savadlı, bilikli, vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən sağlam, saf gənc nəsil yetişdirdik və onlar mənim əmrimlə 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqları azad etdilər. Bugünkü günə görə biz onlara borcluyuq, şanlı ordumuza borcluyuq, Silahlı Qüvvələrimizə borcluyuq, şəhidlərimizə, qazilərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Azərbaycan xalqı elə bir qəhrəmanlıq, elə bir fədakarlıq göstərmişdir ki, bu gün bütün dünyada Azərbaycan oğulları haqqında danışırlar və bizim xalqımıza hörmət edirlər. Çünki biz öz haqqımızı danışıqlar yolu ilə yox, kiminsə güzəşti hesabına yox, döyüş meydanında bərpa etdik, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik. Bütün Azərbaycan xalqı 44 gün ərzində bir yumruq kimi birləşmişdi.

Mənfur düşmən düzgün hesablamalar aparmamışdır. Özlərini özlərinin uydurduqları miflərə o qədər inandırmışdılar ki, hesab edirdilər bizim torpaqlarımızı əbədi işğal altında saxlaya biləcəklər. Onların arxasında duran havadarları - böyük dövlətlər onlarda bu əminliyi daha da gücləndirmişdilər. Ancaq biz əmin idik, bilirdik ki, gün gələcək və biz öz doğma torpaqlarımıza qayıdacağıq.

Uzun illər mən prezident kimi çalışırdım ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun və mənim fəaliyyətim göz qabağındadır, onlarla, bəlkə də yüzlərlə görüşlər keçirilmişdir, danışıqlar aparılmışdır. Amma heç bir nəticə olmamışdır. Nə üçün?! Çünki Ermənistan, bir daha demək istəyirəm, bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi. Onların arxasında duran, guya ki, vasitəçilik edən ölkələr isə bu işğalı əbədi etmək istəyirdilər.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 44 gün ərzində biz hər gün irəli gedirdik. Ermənistan ordusundan fərqli olaraq bir nəfər də olsun hərbçimiz döyüş meydanını tərk etməmişdir. Onların özlərinin etiraflarına görə 12 minə yaxın fərarisi olmuşdur. Bizim əsgər və zabitlərimiz hər gün irəli gedirdilər və müharibənin birinci günündə əldə olunmuş qələbə - bir neçə kəndin azad edilməsi sonuncu günə qədər davam etdi və 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı. Düşmən artıq anlamışdır ki, daha müqavimət göstərmək iqtidarında deyil və ondan sonra kapitulyasiya aktına imza atmışdır, faktiki olaraq təslim olmuşdur. Biz də o vaxt müharibəni dayandırdıq. Çünki müharibənin ilk günlərindən mən bəyan edirdim ki, düşmən bizə tarix versin, torpaqlarımızdan nə vaxt çıxacaq və o təqdirdə biz müharibəni dayandırmağa hazırıq.

O günlər ərzində dəfələrlə mənə müxtəlif paytaxtlardan zənglər gəlirdi, təkliflər irəli sürülürdü, bəziləri isə hədə-qorxu gəlməyə çalışırdı. Ancaq mən öz mövqeyimdə qəti idim və onu həm telefon təmasları əsnasında, eyni zamanda, Azərbaycan xalqına verdiyim bəyanatlarda da demişdim: tarix verilməlidir nə vaxt düşmən torpağımızdan rədd olur, onda biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. 2020-ci il noyabrın 10-da səhər saatlarında Ermənistan kapitulyasiya aktına imza atdı və müharibə dayandı.

Bildiyiniz kimi, müharibə zamanı bir çox xarici media nümayəndələrinə mənim müsahibələrim olub və təbii ki, suallar da müxtəlif olmuşdur. Ancaq müharibədəki planlarımızla bağlı mən, təbii ki, heç bir şey deyə bilməzdim. Sadəcə olaraq, bir dəfə Şuşa haqqında mənə sual veriləndə dedim ki, Şuşasız bizim işimiz yarımçıq qalacaq və hesab edirəm hər kəs anladı ki, Şuşa azad olunmadan biz dayanmayacağıq. Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi.

Antiterror əməliyyatı nəticəsində biz tarixi, əzəli torpaqlarımızı işğalçılardan azad etdik, bir daha dövlətimizin gücünü göstərdik, güclü siyasi iradəsini göstərdik. Heç kimlə hesablaşmadan, heç nəyə baxmadan, heç kimdən qorxmadan lazım olan əməliyyatı böyük peşəkarlıqla, məharətlə və fədakarlıqla keçirdik. Beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir.

Bu gün isə Şuşanın yeni tarixi başlayır. Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bu gün Ulu Öndərin doğum günündə üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Keçən il mayın 10-da ikinci yaşayış kompleksinin təməli qoyulmuşdur. Bu birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Onun bir hissəsi artıq hazırdır. Bu gün siz bu mənzillərə köçəcəksiniz. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar.

Şuşada quruculuq işləri, əslində, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra başlamışdır. İlk növbədə, Şuşaya yol çəkilməli idi. Çünki siz yaxşı bilirsiniz ki, işğala qədər olan dövrdə yol Xankəndi ərazisindən keçirdi. Ona görə Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi. İndi isə daha geniş magistral avtomobil yolu çəkilir. Yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı gözəl bir yol çəkilir və yəqin ki, gələn ilin sonuna qədər o da hazır olacaq. Şuşanın tarixi abidələrinin bərpası dərhal başlanılmışdır.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir

(Əvvəli 1-ci səhifədə)

Birinci, Vaqifin məqbərəsi yenidən quruldu, onun əzəli görkəmi qaytarıldı. Ondan sonra Yuxarı Gövhər Ağa məscidi, daha sonra Saatlı məscidi bərpa olundu. Bu gün Mamayı məscidinin bərpadan sonra açılışını etdik. Çöl Qala məscidində artıq bərpa işləri başlanılıb. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Artıq dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyük beşulduzlu Şuşa mehmanxanası bu gün Şuşanın müasir görkəmini əks etdirir. Amma yenə o mehmanxana da ənənəvi Şuşa memarlığı üslubunda inşa edilmişdir. Bu gün, eyni zamanda, Şirinsu hamamı əsaslı təmirdən sonra açılmışdır. Aşağı Gövhər Ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir Hacıbəylinin vəhşi düşmən tərəfindən dağıdılmış abidəsi yenidən öz yerinə qoyuldu. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü yenə də əvvəlki görkəmdə, formada bərpa edildi, yenidən hazırlandı. Üzeyir Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulur, bu il hazır olacaq. Bir neçə başqa önəmli hadisə baş vermişdir.

Şuşanın dirçəldilməsi geniş vüsət alıb. Hər şey çox müfəssəl və dəqiq, ən müasir şəhərsalma qaydalarına uyğun planlar əsasında qurulur. Bu bərpa-yenidənqurma işlərinə biz dünyanın aparıcı şirkətlərini cəlb eləmişik, təkcə Şuşa üçün yox, bütün azad edilmiş torpaqlar üçün ki, uzun illər ərzində ağır şəraitdə - çadırlarda, yataqxanalarda, uşaq bağçalarında, yararsız binalarda yaşamış insanlar bundan sonra yaxşı yaşasınlar, rahat yaşasınlar. Bununla paralel olaraq həm Şuşada, həm də artıq inşa edilmiş digər qəsəbə və şəhərlərdə məşğulluq məsələləri də həll olunur, treninqlər keçirilir, buraya qayıdacaq insanların işlə təmin olunması məsələlərinə də çox diqqətlə baxılır və bu işlər öz həllini tapır.

Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır. Bu gün, eyni zamanda, Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək.

Mayın 10-u hər birimiz üçün, təbii ki, mənim üçün əziz gündür - Ulu Öndərin doğum günüdür. Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq.



Ona qədər hansı hadisələr baş verirdi, siz, yəni, yaşlı nəsil yaxşı xatırlayırsınız - hakimiyyətsizlik, özbaşınalıq, xaos, hakimiyyət uğrunda gedən mübarizə, hakimiyyətdə səriştəsiz, qorxaq, satqın, xain insanların yerləşdirilməsi. Bütün bunlar Şuşa kimi şəhərin, digər şəhər və kəndlərimizin işğal altına düşməsinin səbəbi olmuşdur. Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi. Şuşanı müdafiə etməyə söz verən, əks təqdirdə öz başına güllə çaxmağa söz verən o ünsür görəsən, indi hansı hisslər yaşayır? Əminəm ki, bu günə sevinmir. Onun kimilər, o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün tör-töküntüləri, onların böyük əksəriyyəti bizim Zəfərimizə sevinməyiblər, əksinə, peşman olublar. Bizim Qələbəmizə bu günə qədər kölgə salmağa çalışırlar, ermənilərlə əlbir olub bizim Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışırlar. Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi. Siz ki, bunu yaxşı bilirsiniz. Şuşa yiyəsiz qalmışdı və Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər. Bununla da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanla de-fakto coğrafi nöqteyi-nəzərindən birləşdi.



Azərbaycan xalqının böyüklüyü bir daha 1993-cü ildə özünü göstərdi. Xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı bilirdi ki, o bəladan onu ancaq Heydər Əliyev qurtara bilər. O vaxt - 1994-cü ildə əldə edilmiş atəşkəs məcburi bir addım idi və biz heç vaxt o atəşkəslə barışa bilməzdik, nə mənim atam, nə də mən. Onun ömrü bu günü görməyə çatmadı. Biz - onun davamçıları, onun və Azərbaycan xalqının arzularını çin etdik və tarixi Zəfər əldə etdik. Düşmənə öz yerini göstərdik və bu gün düşmən bizim qarşımızda acizdir. Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar.

Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqları bir güllə atılmadan bizə qaytarılır. Delimitasiya, demarkasiya bizim şərtlərimiz əsasında həyata keçirilir və bu, bizim növbəti zəfərimizdir.

Biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik. İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm.

Bugünkü bu bayram günü - mənim üçün və hamımız üçün ikiqat bayram günü bir daha onu göstərir ki, biz sülhsevər, biz qurub-yaradan xalqıq. Ermənilər Şuşanı viran qoyub, onu erməniləşdirməyə çalışıblar. Bu gün Aşağı Gövhər Ağa məscidinin təmiri ilə tanış olarkən orada içəridəki sütunların birində xaç gördüm. Yaxşı, məsciddə xaç ola bilər? Buna göz yumanlar, bu gün bizi hansısa cinayətlərdə, yaxud da ki, əməllərdə ittiham edənlər bunu görmürlərmi? Görmürlərmi ki, Ağdam məscidini tövləyə çevirmişdilər. Şuşanın 17 məscidindən 16-sını dağıdıb, birini isə başqa xalqa mənsub olan məscid kimi təqdim etməyə çalışırdılar. Biz buraya qayıdan gün, dərhal guya orada aparılmış təmiri ləğv etdik, onu yenidən qurduq. Bütün şəhər və kəndlərimiz vandallar tərəfindən dağıdılıb. Bunu heç kim görmək istəmir. Amma hər kəs bunu görməlidir və görəcək. Çünki erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə, necə deyərlər, doğma şəhər sayırdılarsa, Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq.

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Burada rahat yaşayın.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım mənzillərin açarlarını sakinlərə təqdim etdilər. Sakinlər Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

* * *

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb.

* * *

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat veriblər.

Bildirilib ki, 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən rayon işğal olunan vaxt Sus kəndində 53 ailə - 203 nəfər yaşayırdı. Tamamilə yenidən tikilərək istifadəyə verilən kəndə ümumilikdə 59 ailə - 214 nəfərin köçürülməsi nəzərdə tutulur. Hazırda kəndə 20 ailənin (75 nəfər) köçürülməsi təmin olunub.

Diqqətə çatdırılıb ki, 25 hektar ərazini əhatə edən kənddə 13 ikiotaqlı, 28 üçotaqlı, 14 dördotaqlı və 4 beşotaqlı fərdi ev tikilib. Kənddə 132 yerlik orta məktəb, 50 yerlik uşaq bağçası da inşa olunub. Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət parkı və müxtəlif uşaq meydançaları yaradılıb.

Sonra Prezident İlham Əliyev kəndə köçmüş sakinlərlə görüşüb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Bizim qəhrəman əsgər-zabitlərimiz, bax, bu sıldırım qayalara dırmaşaraq yüngül silahlarla şəhəri düşməndən azad etmişlər

Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli ICESCO-nun Baş direktoru cənab əl-Malik.

Hörmətli qonaqlar, əziz dostlar.

Bildiyiniz kimi, Şuşa şəhəri İslam dünyasının mədəniyyət paytaxtı elan olunmuşdur. Bu qərara görə ICESCO-ya, onun rəhbərliyinə, ICESCO-ya üzv ölkələrə - qardaş ölkələrə öz təşəkkürümü bildirmək istəyirəm. Şuşa bu şərəfli ada layiq görülüb və biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Birinci dəfə deyil ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Bu dəfə isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa bu şərəfli adı daşıyacaq.

Biz İslam həmrəyliyi istiqamətində ardıcıl fəaliyyət göstəririk. Azərbaycan İslam dünyasının birləşməsi, İslam həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərir.

Ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Təbii ki, Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq.

Şuşa Azərbaycanın bir çox dahi mədəniyyət xadimlərinin vətənidir. Şuşada doğulmuş, burada boya-başa çatmış görkəmli və dahi mədəniyyət xadimləri bizim qürur mənbəyimizdir. Şuşa nəinki Azərbaycanda, bütövlükdə Qafqaz bölgəsində və daha böyük coğrafiyada tarixən mədəniyyət ocağı kimi tanınırdı. Şuşanın mədəniyyət xadimlərinin fəaliyyəti hər zaman böyük diqqət cəlb edirdi.

Biz 28 il Şuşasız yaşayırdıq. Həm şuşalılar, həm bütün Azərbaycan xalqı bu illəri mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Dünən Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir. Şuşanın bir çox tarixi və dini abidələri işğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdılmışdır. Hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır.

Bu işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz - Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik. Qan tökərək, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir.

Qeyd etdiyim kimi, Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik.




Mən xarici qonaqları səmimiyyətlə salamlayıram. Builki "Xarıbülbül" festivalı bu hadisəyə - Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunmasına həsr edilib. Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq. Eyni zamanda, Azərbaycan xalqının əyilməz ruhunu nümayiş etdirən bu məkan həm işğala qədər, həm işğal dövründə, həm də işğala son qoyulandan sonra hər birimiz üçün doğma və əzizdir. Bizim qəhrəman əsgər-zabitlərimiz, bax, bu sıldırım qayalara dırmaşaraq yüngül silahlarla şəhəri düşməndən azad etmişlər.

Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq. Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin. Sağ olun.

* * *

Sonra ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxış edib.

### Salim bin Məhəmməd əl-Malikin çıxışı

- Rəhimli və mərhəmətli Allahın adı ilə.

Aləmlərin Rəbbi olan Allaha həmd olsun!

Məhəmməd Peyğəmbərə salam və dua olsun!

Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva.

Hörmətli iştirakçılar, hörmətli nazirlər, səfirlər, hörmətli qonaqlar.

Allahın salamı, rəhməti və bərəkəti sizə olsun.

O, sanki əzəmətli dağlarının zirvələrinə yüksəlib ki, yeni nailiyyətini fəxrlə bildirsin. 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı oldu. 2023-cü ildə isə o, Türk dünyasının mədəniyyət paytaxtı seçildi. Amma 2024-cü ilin bu günündə o, İslam dünyasının mədəniyyət paytaxtı kimi özünəməxsusluq bayrağını və dühasını daşıyır. Hər dəfə əhatə genişlənir, coğrafiya böyüyür. Üç il mədəniyyət paytaxtı adına layiq olan az sayda belə şəhər var. Bu, dərin bir işarədir. Bu, nailiyyətə, imkanlara və ehtirama işarədir. Bu, Şuşa şəhəridir - paklıq, saflıq və xoş ab-hava şəhəri. Şəhərin adı da elə buradan gəlir. Bizlərdən kimsə dünyada adı saflığa və təmizliyə uyğun gələn başqa şəhər tanıyırmı? Buranın havası təmiz, insanların hissləri pakdır. Buna görə də təəccüblü deyil ki, Şuşa bütünlüklə Qafqazda musiqinin paytaxtıdır, təsviri sənətin məkanıdır, gözəl Azərbaycan xalçasının vətənidir, musiqi, fikir və şairlər yurdudur. Görəsən, bütün bunlar paklığın və saflığın hədiyyəsidirmi?

Şuşa 1751-ci ildə banisi Pənahəli xan tərəfindən ümidlərlə salınıb. Dünya şəhərlərini qoynuna alaraq öz mədəniyyəti ilə onları tanış edib, öz ticarət əlaqələrini möhkəmləndirib. Onun tacirlərinin əks-sədası bütün dünyadan gəlib. Onlar oralara təkcə xalça, qumaş parçalar və mərmər deyil, həm də şeir, poeziya, fəlsəfə, gözəl tablolar göndəriblər. Göndərilənlər içərisində musiqi alətləri də var idi. Ustalar onları sevgi ilə hazırlayıb və nadir yaradıcılıq nümunələri kimi şəhərlərə paylayıblar.

Şuşa daim yüksəklikdə, ucalıqdadır. Onun mütəfəkkirləri, yaradıcı insanları Şuşanın Qafqaz müsəlman kimliyini öz qələmlərində və mürəkkəb qablarında daşımışlar. Onunla Azərbaycan insanının şəxsiyyətini, mədəniyyət hüdudlarını qoruyub saxlamışlar. Buna görə də şəhərin bayrağı daim uca olmuşdur. Qəddar düşmənlər onun şirinliyini ələ keçirmək üçün hər zaman pusquda durmuşlar, lakin şəhər çox keçməmiş öz əziz vətəninin qoynuna qayıtmışdır, qəlblərdə əbədi qalmışdır. Onun zənginliyinə aşiq olmuş mütəfəkkirləri, şairləri, sənətkarları yaddaşlara əbədi həkk olmuşdur. Biz bunlara şairlər Xurşidbanu Natəvanı, Molla Pənah Vaqifi, Qasım bəy Zakiri, xanəndə Cabbar Qaryağdıoğlunu, ifaçı Mirzə Sadıqı, yazıçı Nəcəf bəy Vəzirovu, bəstəkar Üzeyir Hacıbəylini, dramaturq Əbdürrəhim bəy Haqverdiyevi, bəstəkar Fikrət Əmirovu, mütəfəkkir Əhməd Ağaoğlunu və başqalarını aid edə bilərik. Dünən böyük xanəndə Bülbülün evində olanda divarlar, mebellər, ağacların kölgələri dil açıb bizə deyirdi ki, bu ev Şuşada keçmişlə indinin əlaqəsini göstərir, övladların ata-babalarının irsi ilə əlaqəsini sübut edir, enməyən bir bayrağa işarə edir.

Birinci vitse-prezident, birinci xanım, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu qarşısına nəcib hədəflər qoyub. Belə ki, bu Fond, Qarabağın başqa yerlərində olduğu kimi, Şuşa şəhərinin abadlaşdırılması, yenilənməsi yükünü də öz üzərinə götürüb. Biz bu işlərin hər yerdə vüsət aldığının şahidiyik. Bu nümunəvi Fond qısa vaxt ərzində əldə etdiyi nailiyyətlərə görə təbrikə layiqdir. Biz burada yeni yolları, yaraşıqlı binaları, gözəl hotelləri, yenilənən muzeyləri, xalçaları və məscidləri görürük. Bütün bunlar məsuliyyətin dərk edilməsinə, çağırışa hazır olmağa dəlalət edir.

Bu, hərtərəfli inkişaf çağırışıdır. Bunu Prezident İlham Əliyev zəkası ilə böyük həvəslə həyata keçirir və bu da təəccüblü deyil, çünki məhz O, torpaqların azadlığı bayrağını qaldırmışdır. Məhz O, əbədi qayıdış anını xalqına bildirmişdir. Məhz O, öz ayıq-sayıqlığı ilə şəhərin azadlığını planlaşdırmışdır. Bu isə başqa hekayədir.

Şuşa 30 il ərzində Vətənin gözündən uzaq qalsa da, Azərbaycan xalqının övladlarının qəlblərində qorunub saxlanılırdı. Şuşa öz övladlarının sevgisinin və fədakarlığının miqyasını ölçürdü. Şuşa övladlarının ona qayıtmaq üçün çəkdikləri həsrətin səmimiliyinə əmin idi. Xalq dürüstlük, etibarlılıq sınağından uğurla keçərək Qafqaz şəhərlərinin incisini Azərbaycana qaytardı, özü də müzəffər şəkildə qaytardı. Şuşanın əzəmətini bilənlərdə iftixar hissləri coşdu.

Həmin dövrdə ICESCO uzaqda deyildi, Azərbaycan xalqını sevindirən onu da sevindirdi, cəmiyyətin sevincinə qoşuldu. Buna görə də təşkilat vədlərinə sadiq qaldı. ICESCO fəxr edir ki, Prezident İlham Əliyev onun planlarını və Azərbaycanla bağlı proqramlarını dəstəkləyir və təşkilat da öz növbəsində ona öz vəfa borcunu yerinə yetirir. Azərbaycanın zəkalı oğulları ICESCO-da fəaliyyət göstərir, orada təcrübəli ekspertlər kimi çalışırlar.

ICESCO, həmçinin buraya irs missiyası göndərib və bu, azad olunmuş torpaqlara ayaq basan ilk beynəlxalq missiyadır. Bu, tarix kitablarında və vəfa dəftərində qalacaq həqiqətdir. ICESCO bu işə dünən başlamışdır. Amma təşkilat bu gün və sabah da Azərbaycanla olan özünəməxsus etibarlı əlaqələrinə sadiq qalacaq, onun yanında olacaq, onun sivilizasiyada tutduğu yolu müdafiə edəcək, sevinc və qürur anlarını onunla birlikdə qeyd edəcək. Onun oğullarının və qızlarının həyata keçirdiyi quruculuq işlərini dəstəkləyəcək. Paklıq ətrinin və saflıq müşkünün daşıyıcısı olan şuşalı İslam dünyası mübarək olsun. Onun sevgisini bölüşən, hər zaman onu görməyə can atan İslam dünyalı Şuşaya eşq olsun!

Cənab Prezident, Sizə, Birinci vitse-prezidentə, hökumət və parlament üzvlərinə, bütün Azərbaycan xalqına mübarəkdir deyirəm. Allah Şuşanı hifz etsin. Allah Azərbaycanı qorusun. Qoy, həmişə qələbə və nailiyyətimizi bayram edək. Qarabağ Azərbaycandır! Sağ olun.

* * *

Çıxışlardan sonra açılış konserti keçirilib.

Konsertdə "Xarıbülbül"ün bütün iştirakçılarının yer aldığı açılış kompozisiyasının müşayiəti ilə 27 Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil olub.

* * *

Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin ilin may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatıb. "Xarıbülbül" festivalı 1990-cı ildə beynəlxalq status alıb. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Ağcabədi və Bərdədə təşkil olunub.

Vətən müharibəsindəki tarixi Zəfərimiz nəticəsində torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşada keçirilir. Bu il isə festivalın məkanı genişlənərək Laçını da əhatə edir.

Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçilərin iştirak etdikləri bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə töhfə verir.

Xatırladaq ki, festival mayın 13-də başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# “İdman sahəsi də Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır”



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin təsdiq etdiyi plana əsasən, Müdafiə Nazirliyinin baş idarə və idarələri arasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan minifutbol turniri keçirildi.

Yarışda hərbi qulluqçular 10 komanda üzrə "A" və "B" qruplarında mübarizə apardılar. Gərgin mübarizə və dostluq şəraitində keçən oyunları Azərbaycan Ordusunun hərbi qulluqçusu, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) referisi Nail Nağıyev idarə edirdi. Reqlamentə uyğun olaraq, qrup oyunları başa çatdıqdan sonra hər qrupda 1-ci və 2-ci yerləri tutan komandalar yarımfinal mərhələsinə yüksəldilər. Keçirilən final oyununda qalib komanda müəyyən edildi. Qaliblərin mükafatlandırılması mərasimində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi Orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev çıxış edərək Ulu Öndərin həyatından, ordu quruculuğuna verdiyi töhfələrdən danışdı: "Bu gün bütün sahələrdə uğurla inkişaf edən qüdrətli və nüfuzlu Azərbaycanın, rəşadətli və qalib ordumuzun banisi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 101 il ötür. Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən edib. Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu Əbədiyaşar Komandanın şah əsərlərindən biridir. Ulu Öndər Heydər Əliyevin hələ 1969-cu ildə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına ibtidai hərbi məktəb yaradılmışdır. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə də dirçəlişə nail ola bildi. O, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Çox keçmədi ki, 1994-cü ilin əvvəllərində Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı uğurlu hərbi əməliyyat həyata keçirildi. 1994-cü il mayın 12-də elan olunan atəşkəsdən sonra Azərbaycanda nizamlı, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi. Ölkədə nizami ordu quruculuğu formalaşdırılmağa başlandı. Orduda xidmət edən gənclərə yüksək diqqət və qayğı göstərən, onların xidmətini hər zaman yüksək qiymətləndirən Əbədiyaşar Komandan çıxışlarının birində hərbçilərimizə olan rəğbətini belə ifadə etmişdi: "Bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir. Hərbçi olmaq sizlərin də ən birinci seçiminiz olmalıdır. Çünki bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yoludur. Bu yol qəhrəmanlıq yoludur".



Çıxışına davam edən general-polkovnik Kərim Vəliyev müstəqil Azərbaycanda ordu quruculuğu prosesinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoyduğunu vurğuladı. "Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu ali diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz öz gücünü və yenilməzliyini Aprel döyüşlərində və Günnüt zəfərində, şanlı qələbəmizlə başa çatan İkinci Qarabağ müharibəsində sübut etdi. Döyüş meydanında rəşadətlə vuruşan igidlərimizin qəhrəmanlığı, Ali Baş Komandanın siyasi iradəsi ilə bütünləşərək tarixi qələbələr qazandı. Bu günlərdə respublikamızın hər yerində olduğu kimi, ordumuzda da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, elmi konfranslar, idman yarışları təşkil olunaraq, Ulu Öndər şəxsiyyətinə dərin ehtiram və hörmət ifadə olunur. Dahi şəxsiyyətin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri, misilsiz fəaliyyəti xalqımız tərəfindən daim fəxr hissi ilə qeyd olunur, əziz xatirəsi böyük məhəbbətlə, ehtiramla yad edilir. Nə qədər ki, qədirbilən xalqımız var, nə qədər ki, müstəqil Azərbaycan var, Ulu Öndər daima qəlblərdə yaşayacaq, xatirəsi ehtiramla anılacaqdır".

Bağlanış mərasimində digər çıxış edənlər turnir iştirakçılarını təbrik etdilər. Belə tədbirlərin Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji və fiziki hazırlıqlarının yüksəldilməsində mühüm əhəmiyyət kəsb etdiyini vurğuladılar.



Qeyd etdilər ki, Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, idman sahəsi də Azərbaycan dövlətçiliyinin təşəkkülündə və inkişafında misilsiz rol oynamış, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın tarixinə, öz xalqının milli xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyev xalqımızın idmana marağını yüksək dəyərləndirirdi. "Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər, Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir" demişdir. Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan idman ölkəmizdə geniş miqyasda yayılıb. Bu sahədə aparılan uğurlu siyasətin nəticəsində respublikamızda hər sahəsində olduğu kimi, ordu quruculuğunda da idmana yüksək diqqət göstərilir. Hərbi qulluqçuların idmanla məşğul olmaları üçün hərbi hissələrdə bütün idman avadanlıqları ilə təchiz olunan idman şəhərcikləri fəaliyyət göstərir. Onlar da idmana böyük həvəs və maraq göstərir, mütəmadi olaraq fiziki hazırlıqlarını artırırlar.

Sonra Baş Qərargah rəisi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə təşkil olunan minifutbol turnirinin kubokunu qalib komandaya təqdim etdi. Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən konsert proqramı təqdim olundu.

**Kapitan**
**Mahmud MÖHBALIYEV**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçular arasında beşnövçülük üzrə yarışlar keçirilib





2024-cü ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunlarında hərbi qulluqçular arasında "Hərbi beşnövçülük" üzrə birincilik yarışları keçirilib.

Yarışın açılış mərasimində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, çıxış edənlər iştirakçılara uğurlar arzulayıb, bu cür yarışların keçirilməsində əsas məqsədin hərbi qulluqçuların fiziki və psixoloji dözümlülüyünün yoxlanılması, eləcə də güclü komandaların müəyyən edilməsi olduğunu qeyd ediblər.

Yarışın məqsədi və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra "Hərbi beşnövçülük" üzrə birinciliyə start verilib. Müxtəlif qoşun növlərini və birləşmələri təmsil edən komandalar fərdi və komanda birinciliyi uğrunda mübarizə aparıblar.



Hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, avtomatdan atış, qumbaraatma, 8 km məsafəyə kros və üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar.

Yekun nəticələrə əsasən qaliblər diplom, kubok və medallarla mükafatlandırılıblar.

# ƏÜO-da təkmilləşdirmə kursunun buraxılış mərasimi keçirilib



*Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) bir qrup zabitin təkmilləşdirmə kursunu müvəffəqiyyətlə bitirərək yeni vəzifələrə təyin olunması münasibətilə buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev "Zabit heyətinin təkmilləşdirilməsi kursu"nun buraxılış mərasiminin Azərbaycan xalqının Ümummilli Lideri, dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə təsadüf etməsinin sevindirici hal olduğunu bildirib.

Qeyd olunub ki, bu gün Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqaz regionunun ən güclü ordusuna malikdirsə, bunda Ulu Öndərin misilsiz xidmətləri dayanır. Dahi rəhbər tərəfindən 1993-cü ildə başladılan ordu sahəsində aparılan islahatlar ötən illər ərzində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

General-polkovnik Kərəm Mustafayev zabitləri kursu uğurla başa vuraraq yeni vəzifələrə təyin olunmaları münasibətilə təbrik edib, hər bir zabitə Vətənimizin müdafiəsində qüsursuz xidmət arzulayıb.





Məzunlar isə öz növbələrində Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olacaqlarına, gələcək xidmətlərində hərbi biliklərə daha yaxından nüfuz edərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun daha da qüdrətlənməsi üçün səylə çalışacaqlarına söz veriblər.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurduqdan sonra məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmr mərasim iştirakçılarına çatdırılıb.

Məzunların tribuna önündən təntənəli keçidi ilə mərasim başa çatıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, mayın 10-da Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, andiçmə mərasimlərində hərbi orkestrin müşayiəti ilə döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirildikdən sonra tədbirlər açıq elan olunub.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Gənc əsgərlər təntənəli surətdə Hərbi Andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz veriblər.



Tədbirlərdə çıxış edənlər gənc əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Sonda hərbi qulluqçular təntənəli marşla tribunaların önündən keçiblər.

# Hərbi vəzifəlilərin təlim toplanışında növbəti tapşırıqlar icra edilir



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, hərbi hissələrdə bir qrup hərbi vəzifəlilərin iştirakı ilə keçirilən təlim toplanışında növbəti fəaliyyətlər icra edilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim çərçivəsində şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, hərbi nizamnamələr, atəş, sıra, hüquq, mühəndis, rabitə, hərbi tibbi hazırlıq üzrə məşğələlər və digər dərslər keçirilir.

Təlim toplanışı zamanı ehtiyatdan çağırılan hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə, hərbi vərdişlərinin, bilik və bacarıqlarının təkmilləşdirilməsinə yönələn fəaliyyətlər icra olunur, eyni zamanda, ordumuzun arsenalında olan müasir silah və hərbi texnikanın istismar qaydaları öyrədilir.

# "Anadolu Ankası-2024" təlimində növbəti mərhələnin tapşırıqları icra olunub

*Qardaş Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Ankası-2024" ("Anatolian Phoenix-2024") beynəlxalq axtarış-xilasetmə təlimində növbəti tapşırıqlar icra edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına uyğun olaraq, qəzaya uğramış ekipaj üzvünün paraşüt-desant və axtarış-xilasetmə qrupları tərəfindən şərti düşmən ərazisindən axtarışı, aşkar olunan ekipaj üzvünün yerində sorğulanması və təxliyə edilməsi üzrə fəaliyyətlər uğurla icra olunub.



Qeyd edək ki, mayın 17-nə qədər davam edəcək beynəlxalq təlimdə ölkəmizi Hərbi Hava Qüvvələrinin paraşüt-desant və axtarış-xilasetmə xidmətinin bir qrup şəxsi heyəti, aviasiya vasitələri, həmçinin Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları təmsil edirlər.

# Ulu Öndər Heydər Əliyevin 101 illiyi münasibətilə tədbir keçirildi



*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissələrdə silsilə tədbirlər keçirildi.*

Tədbirlərdə Ulu Öndərin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad olundu. Mərkəzin əməkdaşları böyük tarixi şəxsiyyət, həyatını xalqına, Vətəninə həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin çoxşaxəli dövlətçilik fəaliyyətindən ətraflı məlumat verdilər. Bildirdilər ki, Ulu Öndər Azərbaycan dövlətinin, müstəqilliyinin əbədi və dönməz olması üçün bütün çətinlikləri uğurla aradan qaldırdı, böyük xilaskarlıq missiyasını həyata keçirdi. Xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Ermənistan ordusunun hücumları qətiyyətlə dayandırıldı. Düşmən atəşkəs müqaviləsi imzalamağa məcbur oldu. Ölkəmizin həyatında yeni yüksəliş dövrü başlandı. İctimai-siyasi sabitlik bərpa olundu. Yeni inkişaf strategiyaları ilə iqtisadi, siyasi, hərbi, sosial, mədəni sahələrdə dönüş yaradıldı. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi ilə bütün dünya azərbaycanlılarının həmrəyliyinə, birliyinə nail olundu.

Bu gün qürur duyduğumuz müasir Azərbaycan Ordusunu da Ulu Öndər yaradıb. Apardığı məqsədyönlü, xarici



siyasət nəticəsində Ermənistan bir çox dünya dövlətləri tərəfindən işğalçı dövlət kimi tanındı.

Bu böyük siyasi kursun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz tamamilə təmin olundu. Tarixi ədalətsizliyə son qoyuldu.

Mərkəzin əməkdaşları tərəfindən Ulu Öndərə həsr olunmuş sənədli filmlər, videoçarxlar nümayiş etdirildi, viktorinalar, idman yarışları təşkil olundu. Ulu Öndərin rayon və şəhər mərkəzlərində abidələri ziyarət olundu. Unudulmaz xatirəsi böyük ehtiramla yad edildi.

Müasir Azərbaycan dövlətçiliyinin memarı olan Heydər Əliyevin xatirəsi heç zaman unudulmayacaq.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda Ulu Öndər Heydər Əliyevin 101 illiyi münasibətilə yürüş təşkil olunub



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə Naxçıvan şəhərinin Heydər Əliyev prospekti boyunca hərbi marşın sədaları altında yürüş təşkil olunub.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, yürüşə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ictimaiyyət nümayəndələri, gənclər qoşulublar. İştirakçılar üçrəngli Dövlət Bayrağımızı dalğalandırıb, vətənpərvərlik ruhunda şüarlar səsləndiriblər.



# Milli Qəhrəmanın anım günündə "Tank 533 Albert Aqarunov" filminin təqdimat mərasimi keçirildi



*Birinci Qarabağ müharibəsində şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun Şəhidlər xiyabanında anım günü keçirildi. Məzarı ziyarət olundu, üzərinə əklillər, tər qərənfillər düzüldü, ruhuna dualar oxundu.*

Anım tədbirində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin, Dağ Yəhudiləri Dini İcmasının nümayəndələri, Veteran Tankçılar İctimai Birliyinin üzvləri, Milli Qəhrəmanın doğmaları, döyüş yoldaşları, vaxtilə təhsil aldığı məktəbin bir qrup müəllim-şagird kollektivi, veteranlar və başqa qonaqlar iştirak etdilər.

Çıxış edənlər bildirdilər ki, Azərbaycanın Milli Qəhrəmanı əfsanəvi tankçı Albert Aqarunov 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Xalqımız Vətən, torpaq uğrunda ölümün gözünə dik baxıb canından keçmiş qəhrəman oğullarını unutmur, xatirəsini əziz tutur, daim ehtiramla anır. Qəhrəman şəhidlərimizin adlarının əbədiləşdirilməsi, onların ailələrinin dövlətimiz tərəfindən daim diqqət və qayğı ilə əhatə olunması istiqamətində mühüm addımlar atılmış, bu gün də atılmaqdadır.

Sonra Milli Qəhrəmanın ruhuna ehsan süfrəsi təşkil olundu.

Daha sonra Diasporla İş üzrə Dövlət Komitəsində davam edən mərasimdə Birinci Qarabağ müharibəsinin əfsanəvi tankçısı Albert Aqarunova həsr olunmuş "Tank 533 Albert Aqarunov" filminin təqdimat mərasimi keçirildi.

Mərasimdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Təqdimat mərasimində Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Veteran Tankçılar İctimai Birliyinin sədri Hacı Əzimov çıxış edərək, qəhrəman tankçının şərəfli həyat və döyüş yolundan, Azərbaycan torpağına, xalqına bağlılığından, vətənsevərliyindən danışdılar. Onlar çıxışlarında ölkəmizin dünyada tolerant dövlət kimi tanınmasından, əsrlər boyu Azərbaycan və yəhudi xalqları arasında yaşanan mehriban qonşuluq, dostluq əlaqələrindən, respublikamızda multikultural dəyərlərin daim qorunmasından bəhs etdilər. Albert Aqarunovun şərəfli ömür yolunun hər bir gənc üçün örnək olduğunu, onunla qürur duyduqlarını və eyni zamanda, istər Birinci Qarabağ müharibəsində, istərsə də İkinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı naminə gedən döyüşlərdə ölkəmizdə yaşayan bütün azsaylı xalqların nümayəndələrinin də fəal iştirak etdiyini dedilər.



Milli Qəhrəmanın ailə üzvü Rantik Aqarunov qardaşının xatirəsinin daim yad olunduğuna və adının uca tutulduğuna görə Azərbaycan xalqına və Azərbaycan dövlətinə minnətdarlığını ifadə etdi.

Sonra "Tank 533 Albert Aqarunov" filmi qonaqlara nümayiş olundu.

Filmdə Albert Aqarunovun həyatından və müharibə cəbhələrində keçdiyi canlı döyüş yolundan söhbət açılır. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Kanadada fəaliyyət göstərən "ELTV" Media Qrupu və "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə hazırlanmış filmin təqdimat mərasimində Müdafiə Nazirliyinin nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, ictimai-siyasi xadimlər, veteran tankçılar iştirak etdilər.

Təqdimat mərasimi Milli Qəhrəmana həsr olunmuş tanınmış müğənni Dua Muradın ifasında "Vətən övladı Albert" musiqili videoçarxın nümayişi ilə sona çatdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi İnstitutda “Açıq qapı” günü keçirilib





*Milli Müdafiə Universitetinin təşkilatçılığı ilə hərbi peşə seçiminə maraq göstərmiş və buraxılış imtahanlarında yüksək bal toplamış abituriyentlər, onların valideynləri, yaxınları, ictimaiyyət və media nümayəndələrinin iştirakı ilə Heydər Əliyev adına Hərbi İnstitutda "Açıq qapı" günü keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Hərbi institutun qərargahı qarşısında ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, qarşısına gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

Tədbir çərçivəsində ziyarətçilər Heydər Əliyev adına Hərbi İnstitutda kursantlar üçün yaradılan sosial-məişət və təlim-tədris şəraiti ilə yaxından tanış olmaq məqsədilə xidməti, inzibati binalara, yataqxana və yeməkxanaya, həmçinin tədris siniflərinə baş çəkiblər.

Sonra ziyarətçilər institutun ərazisindəki muzeydə Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən, eləcə də digər eksponat və fotostendlərlə tanış olublar.

Heydər Əliyev adına Hərbi İnstitutun klubunda keçirilən tədbirdə imtahanlarda yüksək bal toplamış abituriyentlər və onların valideynləri ilə Milli Müdafiə Universitetinin rəhbər heyəti və Hərbi institutun kollektivinin görüşü keçirilib.

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qonaqlara Heydər Əliyev adına Hərbi İnstitutun tarixi və tədris fəaliyyəti haqqında brifinq təqdim olunub, xüsusi təyinatlı təhsil müəssisələri ilə bağlı məsələlər müzakirə edilib, vətənpərvərlik mövzularında çıxışlar dinlənilib və ziyarətçiləri maraqlandıran suallar cavablandırılıb.

Görüşdə Azərbaycan Ordusunda son illər hərbi təhsil sahəsində həyata keçirilən yeniliklər, əldə olunan nailiyyətlər və hərbi təhsil müəssisələrini bitirən məzunlara verilən imkan və imtiyazlar barədə geniş məlumat verilib. Bildirilib ki, Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində yüksək səviyyəli təhsilin təmin edilməsi məqsədilə ən müasir forma və metodlardan, trenajorlardan, eləcə də digər tədris vasitələrindən səmərəli istifadə olunur.

Tədbirin sonunda Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Orkestrinin ifasında hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar təqdim edilib, qonaqlara nahar süfrəsi təşkil olunub, xatirə şəkilləri çəkdirilib.

# Ağcabədi rayonunda Hərbi Prokurorluq və Müdafiə Nazirliyi birgə tədbir keçirib





Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar Ağcabədi rayonunda Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, onlara rəhmət, döyüşlərdə yaralananlara şəfa arzulanıb.

Ardınca Firad Əliyev, Ağdam hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Elnur Kərimov, polkovnik Gülməmməd Rzayev, polkovnik-leytenant Mehman Ədilov, hüquq müdafiəçisi Ceyhun İbrahimov və digər şəxslər çıxış ediblər. Onlar çıxışlarında müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran dünyaşöhrətli nəhəng tarixi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığından, xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən, vətənpərvər dahinin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasəti yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülən misilsiz işlərdən, həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.



Tədbirdə, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi ilə səmərəli qarşılıqlı işgüzar münasibətlərindən bəhs edilib.

Bundan sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, o cümlədən ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb. Eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb, nümunəvi xidməti ilə fərqlənənlərə hədiyyələr təqdim edilib.

Eyni zamanda, xidmətə yeni başlayan hərbi qulluqçuların andiçmə mərasimi keçirilib.

Sonda ağaclar əkilib.

# Xəbərlər: hadisələr, faktlar

## Belqorodun atəşə tutulması nəticəsində bina uçub, 12 nəfər ölüb



Rusiyanın Belqorod şəhərinin Ukrayna silahlı qüvvələri tərəfindən atəşə tutulması nəticəsində yaşayış binası dağılıb.

Rusiya Fövqəladə Hallar Nazirliyi xəbər verir ki, hadisə nəticəsində 12 nəfər ölüb.

Vilayətin qubernatoru Vyaçeslav Qladkov bildirib ki, şəhərin atəşə tutulması zamanı 20-dən çox insan yaralanıb. Onlardan beşi axşam saatlarında baş verən atışma nəticəsində xəsarət alıb.

Bildirilib ki, "Toçka-U" raketi ilə vurulan onmərtəbəli bina çökmə təhlükəsi ilə üz-üzədir.

## Sergey Şoyqu Rusiya Təhlükəsizlik Şurasının katibi təyin edilib



Sergey Şoyqu Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi təyin edilib.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin sərəncam imzalayıb.

Sergey Şoyqu bu postda Nikolay Patruşevi əvəz edəcək.

Qeyd edək ki, S.Şoyqu bu günədək müdafiə naziri vəzifəsində işləyib.

## İsrail ordusu Qəzzanın şimalında HƏMAS-a qarşı əməliyyata başlayıb



İsrail ordusu HƏMAS radikallarının Qəzza zolağının şimalındakı Cəbəliyyə şəhərinə qayıtmasının qarşısını almaq üçün əməliyyatlara başlayıb.

Bu barədə İsrail Müdafiə Qüvvələrinin sözçüsü Daniel Həcəri bildirib.

"Biz HƏMAS-ın son həftələrdə Cəbəliyyədə hərbi potensialını bərpa etmək səylərini aşkar etdik və bu təhlükəni aradan qaldırmaq üçün bölgədə əməliyyatlar həyata keçiririk", - deyə o qeyd edib.

Həcəri əlavə edib ki, Qəzza şəhərinin Əz-Zeytun bölgəsində İsrail hərbçiləri döyüşlər zamanı 30 silahlını məhv edib.

## Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Xarkov cəbhəsində son vəziyyəti açıqlayıb



Xarkov vilayətində, Rusiya ilə sərhəddə yerləşən ərazilərdə döyüşlər davam edir.

Bu barədə Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Oleksandr Sırski özünün teleqram səhifəsində məlumat yayıb.

Onun sözlərinə görə, bu həftə Xarkov vilayətində vəziyyət xeyli pisləşib.

Sırski qeyd edib ki, vəziyyət ağırdır, lakin Ukrayna Müdafiə Qüvvələri müdafiə xətlərini və mövqelərini qorumaq, düşməni məğlub etmək üçün hər şeyi edir.

Cəbhənin bəzi bölgələrində düşmən qismən uğur qazanır. Bununla belə, digər ərazilərdə Ukrayna hərbçiləri düşməni sıxışdırıb, taktiki mövqelərini yaxşılaşdırır.

General bildirib ki, Kupyansk, Severski, Liman, Pokrovski istiqamətlərində qaynar döyüşlər davam edir və vəziyyət çox dinamik şəkildə dəyişir.

Həmçinin düşmən Kramatorsk istiqamətində Çasovoy Yar istiqamətində irəliləmək cəhdlərindən əl çəkmir. Ruslar şəhərin şərqində hücum əməliyyatlarını davam etdirirlər. Bundan əlavə, işğalçılar Baxmut yaxınlığındakı Kleşçievka ərazisində itirilmiş mövqeləri bərpa etməyə çalışırlar.

"Cəbhədəki çətin vəziyyətə baxmayaraq, hərbi qulluqçuların istirahəti üçün bölmələr rotasiya olunur və briqadaların döyüş effektivliyi bərpa edilir", - deyə Ukrayna Silahlı Qüvvələrinin baş komandanı vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyi HHQ-nin hərbi hissələrində müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin qəbulunu elan edir

***Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi hissələrində müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan vətəndaşların qəbuluna başlanılır.***



Ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, **30 yaşınadək hərbi vəzifəlilər 2024-cü il mayın 13-dən iyunun 14-dək Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində** fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədi ilə Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyalarının qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun mühəndis hərbi hissələrində müvafiq vəzifələrə təyin olunurlar.

**Namizədlər qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə);
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- şəxsiyyət vəsiqəsinin surəti (1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- uşaqların doğum haqqında şəhadətnamələrinin surətləri (uşaq olduqda, 1 nüsxədə);
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış (1 nüsxədə);
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (1 nüsxədə).

**Sənədlərin qəbulu həyata keçiriləcək ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi).

**Müraciət etmə vaxtı**: 13 may 2024-cü il tarixdən 14 iyun 2024-cü il tarixədək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

**Qeyd**: Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

*Hərbi texnikalar, silahlar*

# 155 mm-lik DITA haubitsası



Excalibur şirkəti tərəfindən hazırlanmış 155 mm-lik DITA haubitsa sistemi DANA M2-nin növbəti təkamülüdür.

DITA haubitsa sistemi yüksək dağıdıcı gücə malik "base bleed" (təxminən 20-35% məsafəni artırmaq üçün bəzi artilleriya mərmilərində istifadə olunan sistemdir) sursatı və 39 km-ə qədər atış mənzilinə sahib 155 mm-lik L45 topu ilə təchiz olunub. Qüllənin içərisindəki daşıyıcı kamerada isə 40 ədəd 155 mm-lik sursat var. Təkərli şassi üzərindəki DITA haubitsa sistemi mobil dizayna malikdir. Bu isə qüllənin müxtəlif təkərli və ya tırtıllı şassilərə quraşdırılmasına imkan verir.

DITA haubitsanın başqa bir önəmli xüsusiyyəti onun cəmi iki nəfərlik ekipaj tərəfindən idarə olunmasıdır. Bu xüsusiyyət silah idarəetmə sisteminin yüksək səviyyəli avtomatlaşdırılması sayəsində mümkün olub. Ekipaj yalnız sürücü və komandirdən ibarətdir. Bu ekipaj haubitsa və qülləni şassi kabinəsindən idarə edir.



Silahın atış vəziyyətinə gətirilməsi və tənzimlənməsi Avtomatik Fəaliyyət Mövqeyi Elektron Yönləndirmə Sistemindən (A.S.A.P.) istifadə olunaraq, kompüter tərəfindən tamamilə avtomatik olaraq həyata keçirilir.

Artilleriya sistemi sələfinə bənzər 8x8 təkərli şassi üzərində qurulub. Uzunluğu 13,02 m, eni 3,08 m, hündürlüyü 3,12 m və çəkisi 29 tona qədərdir. Tam avtonom təchiz olunan üst quruluş haubitsanın iki nəfərdən ibarət ekipaj tərəfindən idarə olunmasına imkan verir. Qurğuda əlavə ekipaj üzvünün yerləşdirilməsi mümkündür.

Maksimum məsafə əsas döyüş sursatları ilə 39 km, dəqiq döyüş sursatları ilə isə 50 km-ə qədərdir. Bu artilleriya sistemi də birbaşa atəş açmaq qabiliyyətinə malikdir. Maksimum atəş sürəti dəqiqədə 6 atışdır. Davamlı atəş sürəti dəqiqədə 5 atışdır. Köməkçi silah 7,62 mm və ya 12,7 mm pulemyotdur.

Qeyd edək ki, avtomobil hava ilə soyudulan "Tatra" T3C-928-90 dizel mühərriki və avtomatik transmissiya ilə birləşdirilmiş 400 at gücü ilə təchiz edilmişdir. Əsas mühərrikin nasazlığı halında silahı təcili idarə etməyə imkan verən köməkçi enerji mənbəyi də var. DITA xüsusi iş şəraitindən asılı olaraq 300-dən 600 km-ə qədər ərazidə 25 km/saat, magistral yolda isə 90 km/saat sürətlə hərəkət edə bilir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan samboçuları Avropa çempionatını 10 medalla başa vurublar



Azərbaycanın samboçuları Serbiyanın Novi Sad şəhərində keçirilmiş Avropa çempionatını 10 medalla başa vurublar.

Son olaraq, gənc və yeniyetmələrdən ibarət yığmaların ümumilikdə 7 üzvü fəxri kürsüyə qalxıb.

Gənclər arasında Nicat Rəhimov (64 kq) və Xudabaxış Əliyev (71 kq) 2-ci, Pünhan Göyüşov (79 kq) 3-cü yeri tutublar.

Yeniyetmələrin mübarizəsində isə İsmayıl Əlipənahov (53 kq), Nicat Süleymanlı (64 kq), Roman Qarayev (79 kq) və Hacıbaba İmaməliyev (+98 kq) fəxri kürsünün 3-cü pilləsinə qalxıblar.

Beləliklə, Azərbaycanın sambo yığmaları Avropa çempionatında 10 medal (1 qızıl, 2 gümüş, 7 bürünc) qazanıb. Daha əvvəl böyüklər arasında Elvin Bağırov (64 kiloqram) qızıl, Nicat Məmmədli (58 kiloqram) və Rəsul Aydəmirov (98 kq) bürünc medalın sahibi olub.

## Azərbaycan parataekvondo millisi Avropa çempionatında tarixi uğura imza atıb




Azərbaycan parataekvondo millisi Serbiyanın paytaxtı Belqradda keçirilmiş Avropa çempionatında tarixi uğura imza atıb.

Yığmanın heyətində İmaməddin Xəlilov (70 kq) qızıl, Əbülfəz Abuzərli (80 kq) gümüş medal qazanıblar. Yığma bu nəticə ilə medal əyarına görə komanda hesabında birinci yeri tutub.

İkinci pillədə Türkiyə, üçüncü sırada isə neytral statusda çıxış edən idmançılardan komandası (AIN) qərarlaşıb.

Qeyd edək ki, Azərbaycan millisi qitə birinciliyində baş məşqçi Fərid Tağızadənin rəhbərliyi altında mübarizə aparıb. Yığma yarışda 3 parataekvondoçu ilə təmsil olunub.

## Azərbaycan gimnastları Dünya Kubokunda 4 medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan millisi Bolqarıstanın Burqas şəhərində keçirilən Dünya Kubokunda uğurla çıxış edib.

Gimnastlarımız yarışda 4 medal qazanıblar. Belə ki, Ağasif Rəhimov və Raziyə Seyidli qarışıq cütlüyü, həmçinin Zəhra Rəşidova, Anahita Bashiri və Nəzrin Zeyniyevadan ibarət üçlük qızıl mükafat əldə ediblər.

Murad Rəfiyev və Daniel Abbasovdan ibarət cütlük, Riad Səfərov, eləcə də Abdulla Əl-Məşayxi, Seymur Cəfərov və Seyidli Rəsul ibarət kvartet isə Dünya Kubokunda 2-ci pilləni tutublar.

## Mariya Stadnik "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb




Azərbaycanın qadın güləşçisi Mariya Stadnik Türkiyənin İstanbul şəhərində keçirilən Dünya Olimpiya Təsnifat turnirində "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

50 kiloqram çəki dərəcəsində çıxış edən idmançı bürünc medal görüşündə bolqarıstanlı Miqlena Selişkaya tam üstünlüklə qalib gəlib. O, lisenziya uğrunda isə italiyalı Emanuela Liuzzini məğlub edərək Parisə vəsiqəni təmin edib. Bununla da Mariya Stadnik 5-ci dəfə Olimpiadada çıxış edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Quliyev Siyavuş Nazim oğluna məxsus AD № 0051606 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Elvin VƏTƏNDUST

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 272
Nüsxə 4650